# Bolqarıstan mətbuatı Azərbaycanın üzləşdiyi mina problemindən yazıb

Azərbaycanın Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarında basdırılmış minaların törətdiyi ciddi təhdidlər və çağırışlar Bolqarıstan mətbuatında geniş işıqlandırılıb.

Ölkəmizin Bolqarıstandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, yerli mediada dərc olunmuş materialda Qarabağ və ətraf rayonlar üzərində suverenliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında duran ən ciddi problemlərdən birinin Ermənistanın yaşayış üçün yararsız zonaya çevirmək məqsədilə işğal illərində bu ərazilərə basdırdığı 1,6 milyona yaxın minanın təmizlənməsi olduğu vurğulanır. Diqqətə çatdırılır ki, bu prosesin uğurla nəticələnməsi azərbaycanlı əhalinin öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmini, habelə bu ərazilərdə aparılan bərpa və quruculuq işlərinin tamamlanması üçün mühüm əhəmiyyət daşıyır.

Yazıda həmçinin Azərbaycan hökumətinin problemin böyük miqyasını nəzərə alaraq, keçmiş məcburi köçkünlərin qayıdışını asanlaşdırmaq üçün ilkin olaraq nəqliyyat qovşaqları, əsas infrastruktur və yaşayış sahələri kimi xüsusi önəm kəsb edən ərazilərin təmizlənməsinə üstünlük verdiyi, eləcə də mina və partlamamış mərmilərin yaratdığı təhlükələri minimuma endirmək məqsədilə mülki əhali arasında geniş maarifləndirmə proqramı həyata keçirdiyi qeyd olunur. Eyni zamanda regionda və bütün dünyada davamlı sülh, təhlükəsizlik və rifahın bərqərar olması üçün ümumbəşəri həmrəylik ruhunda beynəlxalq birliyin Azərbaycanda aparılan minatəmizləmə fəaliyyətlərinə dəstəyinin önəmi vurğulanır.

Azərbaycan. - 2025.- 25 aprel (№ 82).- S.12.